DİN

# MÜBARİZ KEŞİKDƏ

8 noyabr 2018-ci il
Cümə axşamı
№ 44 (3408)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ DAXİLİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında əlaqələrin çox yüksək səviyyədə olduğunu qeyd edərək, özünün Səudiyyə Ərəbistanına səfəri və səfər zamanı Kral Həzrətləri və digər rəhbər şəxslər ilə aparılan müzakirələri məmnunluqla yad etdi, bu müzakirələrin əlaqələrimizin inkişafı üçün önəmli rol oynadığını bildirdi. Prezident İlham Əliyev dedi ki, ölkələrimiz müxtəlif sahələrdə uğurlu əməkdaşlıq edir, siyasi əlaqələr çox yüksək səviyyədədir və beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləyir. Dövlətimizin başçısı bildirdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Səudiyyə Ərəbistanının ədalətli və qardaşlıq hisslərinə əsaslanan mövqeyi Azərbaycanda çox böyük minnətdarlıq hissi ilə qarşılanır. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan xalqı Səudiyyə Ərəbistanının bu münaqişə və işğala görə Ermənistanla heç bir əlaqə yaratmadığını yaxşı bilir və bu, bizim dostluğumuzun, qardaşlığımızın bariz nümunəsidir.



İqtisadi sahəyə toxunan Prezident İlham Əliyev son zamanlar bu istiqamətdə inkişafla bağlı çox ciddi addımların atıldığını dedi və gələcək illərdə sərmayə qoyuluşu və ticarət dövriyyəsinin artırılması ilə əlaqədar daha geniş tədbirlərin həyata keçiriləcəyinə əminliyini ifadə etdi. Son vaxtlar Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayının dəfələrlə artdığını qeyd edən Prezident İlham Əliyev bunu dostluğumuzun növbəti təzahürü kimi dəyərləndirdi. Dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimizin təhlükəsizlik sahəsində əməkdaşlığı da yaxşı səviyyədədir. Prezident İlham Əliyev əminliyini bildirdi ki, Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səudun bu səfəri ölkələrimiz arasında əməkdaşlığın, o cümlədən Daxili İşlər nazirlikləri arasında əlaqələrin inkişafına öz töhfəsini verəcək.

Xoş sözlərə görə minnətdarlığını bildirən Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif Al Səud, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər getdikcə inkişaf edir, müxtəlif məsələlərə dair yüksək səviyyəli koordinasiya mövcuddur. Səudiyyə Ərəbistanının Azərbaycan üçün qardaş, yaxın və strateji tərəfdaş ölkə olduğunu vurğulayan qonaq ölkələrimizin Daxili İşlər nazirlikləri arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu dedi. Bu baxımdan qonaq Azərbaycanın daxili işlər nazirinin Səudiyyə Ərəbistanı Krallığına səfəri zamanı iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığa dair imzalanmış sazişin önəmini vurğuladı.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və Vəliəhdinə çatdırmağı xahiş etdi.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAM RAYONUNA SƏFƏRİ

Noyabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfərə gediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Sonra Azərbaycan Prezidenti Ağdam rayonunda əsaslı şəkildə yenidən qurulan Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun açılışında iştirak edib.

Dövlətimizin başçısı Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsib.

Noyabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.

Muğam Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 5-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağdam filialının açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XIX əsrdə, eləcə də XX əsrin əvvəllərində Qarabağın müxtəlif bölgələrində toxunan nadir xalçalara baxıblar.

Sonra dövlətimizin başçısı və birinci xanım xalçaçılarla görüşüblər.

Daha sonra birinci xanım Mehriban Əliyeva müəssisədə toxunan ilk xalçanı kəsib.

Sonda xatirə şəkli çəkdirilib.

Noyabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qapalı manejdə yaradılan şəraitlə tanış olublar, sonra Azərbaycanın qədim milli "Sür-papaq" atüstü oyununa baxıblar.

Dövlətimizin başçısı və xanımı kompleksin tövlələrində yaradılan şəraitlə də tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım kompleksin açıq manejində Dövlət Sərhəd Xidmətinin Atçılıq Mərkəzinin "Süvarilər" qrupunun nümunəvi çıxışlarına baxıblar.

Sonra xatirə şəkli çəkdirilib.

Noyabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olarkən yolüstü Ağcabədi rayonunun Hindarx qəsəbəsində Əsmər Hüseynovanın pambıq sahəsi ilə tanış olublar.

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 31-də Gəncə Dövlət Universitetinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı oktyabrın 31-də Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri oktyabrın 31-də Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Noyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.***

❖❖❖❖❖

**Noyabrın 1-də dövlətimizin başçısı Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 3-də Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı noyabrın 4-də Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri noyabrın 5-də Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Noyabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında ədəbiyyatşünaslıq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Qəzənfər Məmməd oğlu Paşayevə "Əməkdar elm xadimi" fəxri adının verilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Noyabrın 5-də dövlətimizin başçısı Azərbaycan Respublikasında ədəbiyyatşünaslıq sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə bir qrup şəxsin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 5-də Ağdam rayonunun erməni silahlı birləşmələri ilə təmas xəttində yerləşən yaşayış məntəqələrində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri noyabrın 5-də V Bakı beynəlxalq teatr konfransının açılışı münasibətilə konfrans iştirakçılarını təbrik edib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri noyabrın 6-da Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

***Möhtəşəm üçrəngli bayrağımızın vüqarla dalğalanması müstəqil dövlətimizin hər bir vətəndaşında qürur hissi yaradır. Uzun illər bunu arzulamış, bunu gözləmişik...***

*Bax səh.2.*

# DAİM YÜKSƏLƏN XƏTT ÜZRƏ İNKİŞAF EDƏN AZƏRBAYCAN

Müstəqil Azərbaycan ötən dövr ərzində böyük inkişaf yolu keçib. Ulu öndər tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyası cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlətimizin başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Son illər ölkəmizdə aparılan islahatlar Azərbaycanın dünyanın ən aparıcı hesabatında mövqeyinin kəskin möhkəmlənməsinə şərait yaradıb. Belə ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan 25-ci yerdə olmaqla MDB ölkələri arasında ən yaxşı göstəriciyə malikdir. Hesabatda Qazaxıstan 28-ci, Rusiya 31-ci, Belarus 37-ci, Moldova 47-ci, Qırğızıstan 70-ci, Ukrayna 71-ci, Özbəkistan 76-cı, qonşu Türkiyə isə 43-cü yerdə qərarlaşıb. Azərbaycan bu kontekstdən MDB ölkələri ilə müqayisədə ən yaxşı göstəriciyə malikdir. Eyni zamanda, Azərbaycan 2017-2018-ci illərdə ən çox islahat aparmış 10 ölkədən biridir və həmin dövrdə aparılan islahatların sayına görə dünyada birinci yerdədir. Azərbaycan 8 islahat aparıb, islahatların sayına görə isə qonşu Türkiyə (7 islahat) ikincidir.

*Ardı 2-ci səhifədə*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri şahzadə Əbdüləziz bin Səud bin Nayif bin Əbdüləziz Al Səudun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Noyabrın 4-də nümayəndə heyətini qəbul edən daxili işlər naziri Ramil Usubov qonaqları salamlayaraq dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə şahzadə Əbdüləziz bin Səud bin Nayif bin Əbdüləziz Al Səuda təşəkkürünü bildirib, ölkələrimiz arasında son illər bütün sahələrdə əməkdaşlığın genişləndiyini vurğulayıb.

Xalqlarımız arasında çoxəsrlik tarixi, mədəni, dini yaxınlığın mövcudluğunu qeyd edən nazir dövlətlərarası əlaqələrin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, həmçinin 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfər etdiyini, müxtəlif sahələrdə beynəlxalq hüquqi sənədlərin imzalandığını məmnunluqla xatırladıb. O, Prezident Zati-aliləri İlham Əliyevin və kral, İki Müqəddəs Ocağın Xadimi Salman bin Əbdüləziz Al Səudun siyasi iradələri sayəsində ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini, Səudiyyə Ərəbistanının beynəlxalq arenada Azərbaycanı tam dəstəklədiyini, bu səfərin, xüsusən cənab Naif bin Əbdüləziz Al Səudun dövlətimizin başçısı tərəfindən qəbul olunmasının Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini ifadə edib.

Nazir Ramil Usubov müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər, torpaqlarımızın işğalı, ulu öndərin ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilmiş müsbət nəticələr barədə məlumat verib. Qeyd olunub ki, kriminogen durumun tam nəzarətə götürülməsi, sabitliyin bərpası Azərbaycanda bir sıra qlobal infrastruktur layihələrin reallaşmasına, iqtisadiyyata külli miqdarda xarici sərmayənin yatırılmasına, insanların təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərməsinə, hər il getdikcə daha çox səudiyyəlinin turist kimi respublikamıza gəlməsinə əlverişli şərait yaradıb.

Daha sonra regionda cərəyan edən proseslərin transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi zərurətini meydana çıxardığını, bu növ cinayətlərə, xüsusən beynəlxalq terrorçuluğa, narkotik qaçaqmalçılığına, qanunsuz silah ticarətinə, insan alverinə qarşı səmərəli mübarizə aparmaq üçün əməkdaşlığın genişləndirilməsinin, informasiya mübadiləsinin intensivliyinin artırılmasının əhəmiyyətini, Daxili İşlər nazirlikləri arasında əlaqələrin möhkəmləndirilməsinin, bununla əlaqədar mükəmməl hüquqi-normativ bazanın yaradılmasının əhəmiyyətini diqqətə çatdırıb.

Nazir səudiyyəli həmkarının dəvəti əsasında cari il fevral ayının 19-da dost ölkəyə rəsmi səfəri zamanı «Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığı arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında» Protokolun imzalanmasını bu istiqamətdə mühüm addım kimi dəyərləndirərək qarşılıqlı faydalı münasibətlərin hər iki ölkənin maraqlarına və xalqlarımızın mənafelərinə cavab verdiyini vurğulayıb.

Cənab Əbdüləziz bin Səud bin Nayif bin Əbdüləziz Al Səud dəvətə və yüksək qonaqpərvərliyə görə daxili işlər naziri R.Usubova təşəkkür edib, bu səfərin əməkdaşlıq əlaqələrinin daha da dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Respublikamızda ilk dəfə rəsmi səfər etməsindən, onun dinamik inkişafından, burada gedən böyük quruculuq işlərindən məmnunluğunu ifadə edən şahzadə Nayif bin Əbdüləziz Al Səud həssas bölgədə yerləşən Azərbaycan və Səudiyyə Ərəbistanının möhkəm təməllərə söykənən dostluq və qardaşlıq münasibətlərinin, hər iki ölkədə sabitliyin, əmin-amanlığın təmin edilməsinin regiondakı ümumi təhlükəsizliyə müsbət təsir göstərəcəyini, Krallığın hüquq-mühafizə orqanlarının əməkdaşlığa hər zaman maraqlı olduqlarını nəzərə çatdırıb.

Səmimilik və işgüzar şəraitdə keçən görüşdə təhlükəsizlik sahəsində əlaqələrin mövcud vəziyyəti, prioritet istiqamətləri barədə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Qəbulda Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev iştirak edib.

*4 noyabr 2018-ci il.*

# VƏTƏN QƏDƏR GÖZƏL



**Möhtəşəm bayrağımızın vüqarla dalğalanması müstəqil dövlətimizin hər bir vətəndaşında qürur hissi yaradır. Uzun illər bunu arzulamış, bunu gözləmişik.**

İndi bu bayraq Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, NATO, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər bir çox baynəlxalq təşkilatlarda ən hörmətli ucalıqda dalğalanır. Ulu öndərin düzgün müəyyənləşdirdiyi siyasi strategiya nəticəsində müstəqil dövlətimiz bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə öz milli maraqlarını gerçəkləşdirib, dünya birliyinə töhfələrini verir. Milli dövlətçiliyimizin rəmzi olan bayrağımızın bu gün dünyada söz sahibi olan mötəbər beynəlxalq təşkilatlarda dalğalanması dövlətimizin varlığının, dünya birliyindəki qüdrətinin təsdiqidir.

Dövlət başçımız cənab İlham Əliyev 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" Əsasnaməyə edilmiş əlavə və dəyişiklikləri təsdiqləmişdir. "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" qanunun imzalanması Dövlət Bayrağına yüksək ehtiramının ifadəsidir.

Möhtərəm Prezidentimiz 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə rəsmi ucaldığı 9 noyabr tarixini "Azərbaycan Respublikasının **Dövlət Bayrağı Günü" kimi təsis etmişdir.** 2010-cu il sentyabrın 1-də isə Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimi olmuşdur.

Dünya durduqca bu möhtəşəm bayraq bütün azərbaycanlıların iftixar mənbəyi və məbədidir. Bu gün harada Azərbaycan adı anılırsa, orada qürurla bayrağımızın dalğalanmasını seyr edirik.

**Bayraq bizim müstəqilliyimizin, dövlətçiliyimizin, milli varlığımızın ən qiymətli simvollarındandır.**

**Bayraq Vətən qədər gözəldir, müqəddəsdir.**




# MÜHAFİZƏ POLİSİ YENİ BİNAYA KÖÇDÜ

***DİN Baş Mühafizə İdarəsinin Cəlilabad Regional Mühafizə Şöbəsinin yeni inzibati binası istifadəyə verilib. Tədbirdə RİH-in başçısı Namiq Zeynalov, Baş Mühafizə İdarəsinin rəis müavini, polis polkovniki Daşqın Mehdiyev, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak ediblər.***

***İkimərtəbəli inzibati binanın ümumi sahəsi 170 kvadratmetrdir. Müasir standartlara uyğun olaraq inşa edilmiş bina bütün zəruri avadanlıqlarla təchiz edilib. Binada ventilyasiya, mərkəzi istilik sistemi, rabitə-kommunikasiya və elektrik xətləri quraşdırılıb. Ərazi hasarlanıb, abadlaşdırma, xarici işıqlandırma işləri yerinə yetirilib.***

# DAİM YÜKSƏLƏN XƏTT ÜZRƏ İNKİŞAF EDƏN AZƏRBAYCAN

*Əvvəli 1-ci səhifədə*

Təsadüfi deyildir ki, Azərbaycan dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb, dünyada maraqla qarşılanan iqtisadi inkişafın Azərbaycan modeli formalaşıb. Yaradılmış makroiqtisadi sabitlik, Azərbaycanın qlobal çağırışlara hazır olması, iqtisadiyyatın davamlı inkişafı və diversifikasiyası, güclü iqtisadi potensial, sistemli islahatlar, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı sayəsində ölkə iqtisadiyyatı 2008-ci ildə başlayan qlobal iqtisadi böhranı, sonrakı dövrlərdə dünya enerji bazarındakı qeyri-sabitlik və digər neqativ iqtisadi prosesləri hazırlıqla qarşılayıb, bütün neqativ təsirləri minimuma endirməyə, qlobal maliyyə-iqtisadi böhran şəraitində belə, bir sıra ölkələrdən fərqli olaraq, sosial-iqtisadi inkişafa nail ola bilib.



***Statistik göstəricilər Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlığını bir daha təsdiq edir. Belə ki, 2004-2017-ci illərdə ümumi daxili məhsul istehsalı real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft ÜDM 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 3 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 4,9 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 1,7 dəfə, yükdaşımalar 2,1 dəfə, informasiya və rabitə xidmətləri 11,2 dəfə, pərakəndə ticarət dövriyyəsi 3,8 dəfə artıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 13,5 dəfə artıb. 2004-cü ildən 2018-ci ilin oktyabr ayının 1-dək ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 45 milyard ABŞ dollarını ötüb.***

Möhtərəm Prezidentimizin rəhbərliyi ilə görülmüş genişmiqyaslı, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır.

Ölkə başçısının "Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə bağlı olmalıdır" strateji xəttinə uyğun olaraq, həyata keçirilən sənayeləşmə siyasəti nəticəsində yüzlərlə müasir sənaye müəssisəsi, yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib. Ötən müddət ərzində Azərbaycan üçün ənənəvi olan sənaye sahələri genişlənməklə yanaşı, yeni sənaye sahələri də yaradılıb. Belə ki, 2013-cü ildə ilk süni peykini orbitə çıxararaq dünya kosmos ailəsinin üzvünə çevrilən Azərbaycan bu yaxınlarda sayca 3-cü peykini - "Azərspace-2"ni orbitə buraxıb. Alternativ və bərpa olunan enerji sahəsinə diqqətin artırılması və bu sahədə bir sıra müəssisələrin işə düşməsi ilə artıq Bakının işıqlandırılmasında günəş panellərindən və külək generatorlarından istifadə olunur. Müasir texnologiyalara əsaslanan gəmiqayırma zavodunun fəaliyyətə başlaması ilə yeni sənaye sahəsi yaradılıb. Ölkədə təkrar istehsalın təşkili məqsədilə Balaxanı Sənaye Parkı fəaliyyətə başlayıb. İstehsal gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri müəssisə olan və Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verən Bərk Məişət Tullantılarının Yandırılması Zavodu ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılmasına və ətraf mühitə mənfi təsirlərin azaldılmasına xidmət etməklə yanaşı, həm də tullantıları enerjiyə çevirir.

Ölkədə qeyri-ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan xalqının milli mədəniyyətinin tarixində özünəməxsus yer tutan xalçaçılıq, ipəkçilik və digər ənənəvi sənaye sahələrinin inkişafına böyük diqqət göstərilir. Hazırda xalçaçılığın və ipəkçiliyin inkişafına dair dövlət proqramları uğurla icra olunur. Dövlət başçısının tapşırığına uyğun olaraq, xalçaçılığın inkişafı məqsədilə 11 rayonda xalça emalatxanası istifadəyə verilib, daha 10 emalatxananın, 5 yun və boyaq maddələrinin qəbulu məntəqəsinin və Sumqayıt Kimya Sənaye Parkında Yunəyirici Boyaq Fabrikinin tikintisi davam etdirilir. 2019-cu ildə daha 9 xalça emalatxanasının, 3 yun və boyaq maddələrinin qəbulu məntəqəsinin tikintisi həyata keçiriləcək ki, bununla da emalatxanaların sayı 30-a, məntəqələrin sayı 8-ə çatdırılacaq.

Azərbaycanda qeyri-neft sektorunun innovativ və yüksək texnologiyalara əsaslanan inkişafını təmin etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq, eləcə də regionlarda kənd təsərrüfatı ilə yanaşı, sənaye sahəsində çalışmaq istəyənlərin maraqlarının təmin edilməsi məqsədilə sənaye parkları və məhəllələri yaradılır. Artıq Azərbaycanda kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parkları fəaliyyət göstərir. Bu sənaye parklarının 40-dan çox rezidenti var və onlar tərəfindən indiyədək 2,7 milyard ABŞ dollarından çox investisiya yatırılıb. Növbəti mərhələdə 1 milyard dolları dək investisiya qoyuluşu və 7000-dək yeni iş yerinin açılması nəzərdə tutulub.

Bütün bunlar ölkə rəhbərliyi tərəfindən həyata keçirilən siyasətin xalq tərəfindən tam dəstəklənməsi də mühüm rol oynamaqdadır. Ölkəmizdə xalqla iqtidar arasında sarsılmaz bir birlik formalaşıb. Beləliklə, qeyd edilənlər bir daha göstərir ki, Azərbaycanda ölkə rəhbərliyinə xalqın etimadı yüksəkdir və o daim yüksələn xətt üzrə inkişaf edir. Məhz bu amil də Azərbaycanın daha güclü, sürətlə inkişaf etməkdə olan sabit bir dövlətə çevrilməsində mühüm rol oynayan əsas məqamlardan biridir.

***Zeyni Hüseynov***

# YAZIRLAR Kİ...

**Ölkəmizdə insanların hüquq və azadlıqlarını qorumaq dövlətin bütün qurumlarının təməl prinsipidir, xüsusən də asayişin təminatçısı olan polisimizin. Polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması daxili işlər orqanları əməkdaşlarının xidməti fəaliyyətinin əsas istiqamətlərindəndir.**



Xilaskarlıq missiyasını layiqincə yerinə yetirən polislərimizə hər zaman, hər yerdə ehtiyac duyulur. Yaşından, peşəsindən asılı olmayaraq, üzləşdiyi problemə çarə axtaranlar onu polisin çevik və obyektiv fəaliyyəti sayəsində tapdıqlarından öz hisslərini redaksiyamıza ünvanladıqları təşəkkür dolu məktublarda ifadə edirlər. Hər gələn məktubdan bir nəfərin deyil, bir ailənin sevinci, həmkarlarımıza olan rəğbəti boy verir.

Belə məktublardan biri həmkarlarımızın son anda dadına yetişdikləri **Bakı şəhər sakini Fidan Hüseynova** tərəfindən yazılıb. Bir anda çantasını qaçırmağa cəhd edən şəxs polisin çevikliyi və peşəkarlığı sayəsində yerindəcə zərərsizləşdirilib. Məktubunda o hisslərini dərin minnətdarlıqla ifadə edərək, daxili işlər orqanları əməkdaşlarına uğurlar diləyir.

**Abşeron sakini Sevinc Baxışova** isə itirdiyi telefonun tez bir zamanda tapılmasında göstərdikləri köməyə görə RPİ-nin əməkdaşlarına təşəkkürünü bildirir.

**Sumqayıtdan Taleh Məmmədov** müraciətinə tez və obyektiv baxılmasına, **polis veteranı Müzəffər Novruzəliyev** göstərilən diqqət və qayğıya görə DİN rəhbərliyinə minnətdarlıq edirlər.

**Paytaxt sakini Ramin Şıxverdiyev** şikayətinə baxılaraq ona dəyən ziyanın ödənilməsində göstərilən köməyə görə Azərbaycan Polisinə təşəkkürünü bildirir.

**Şəmkir rayonundan Sakit Məmmədəliyev** məktubunda ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə polisin rolunu yüksək dəyərləndirir, şikayətinə tez bir zamanda baxılaraq həllini tapmasında ona göstərilən köməyə görə DİN rəhbərliyinə minnətdarlığını yazır.

**Xaçmazdan Şirxan Əzizov, Sumqayıt şəhər sakini Samir Əzizov** DİN rəhbərliyinə ünvanladıqları təşəkkür məktubunda müraciətlərinin müsbət həllini tapmasında göstərdikləri köməyə görə daxili işlər orqanları əməkdaşlarının fəaliyyətini təqdir edirlər.

**Bakı şəhər sakinləri Aynur Rəsulova və Elman İbrahimov** müraciətlərinə polisin çevik reaksiya verməsini vətəndaş hüquqlarına verilən ən böyük dəyər kimi qiymətləndirirlər.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# İŞĞALÇI ÖLKƏNİN ÇÖKÜŞÜ SÜRƏTLƏ DAVAM EDİR

**Mövzuya müraciət etməyimə səbəb möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin düşünülmüş və çox sərrast siyasəti ilə Ermənistanı təcrid və bütün imkanlardan məhrum etməsidir. Maraqlıdır ki, bunu ermənilərin özləri etiraf edirlər. Ermənistan mətbuatı və yerli ekspertlər bəyan edirlər ki, ölkələri regional münasibətlərdə də Azərbaycan Prezidenti tərəfindən iflasa uğradılıb.**

**Qürurvericidir, deyilmi?**

Qarşımda bir kitab var - zati-alilərinin "İnkişaf-məqsədimizdir" çoxcildliyinin növbəti sayı - 71-ci kitab. Vərəqləyirəm. Əxz elədiyim o olur ki, dövlət başçısının bütün səfərlərində, keçirdiyi ən mötəbər görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri diqqət mərkəzində dayanır və mütləq şəkildə müzakirə edilir.

Baxın, ölkə rəhbəri Çin Xalq Respublikasında dövlət səfərində olarkən hazırlanmış reportajda deyilir: "Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyannamədə bu problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü əsasında həll edilməsinin əksini tapmasının önəmli olduğunu vurğuladı. Dövlətimizin başçısı Çinin münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini dəstəklədiyini yüksək qiymətləndirdi, ölkəmizin də "Vahid Çin" prinsipinə dəstək verdiyini dedi."

Dövlətimizin başçısı Gürcüstan Respublikasında rəsmi səfərdə olarkən onun şərəfinə bu ölkənin Prezidenti adından verilən rəsmi ziyafətdəki çıxışında da bəyan etmişdir ki, işğalçı Ermənistanın beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların qərarlarına riayət etməməsinə baxmayaraq, bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun həll olunmalıdır.

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bridcet Brinkin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdən verilən məlumatda bildirilmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələ ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

Dövlət başçımızın Azərbaycan Respublikası V çağırış Milli Məclisinin ilk iclasındakı nitqində söylədikləri də diqqətçəkəndir: "Problemlərin arasında birinci məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həll olunmamasıdır. Beynəlxalq hüququn norma və prinsipləri, əlbəttə ki, bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə, tarixi ədalət də bizim tərəfimizdədir. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı bu torpaqlarda əsrlər boyu yaşamış, yaratmışdır. Ermənilər Dağlıq Qarabağ ərazisinə XIX əsrdə köçürülüblər. Bu tarixi biz yaxşı bilirik və bütün dünya da bu tarixi bilməlidir. Son illər ərzində aparılan siyasət, o cümlədən deputatlar tərəfindən görülən işlər nəticəsində artıq geniş beynəlxalq ictimaiyyət bilir ki, bu, bizim tarixi torpağımızdır...".

Elə buradaca İSESKO-nun XII Baş Konfransının və İcraiyyə Şurasının Bakıda keçirilən növbəti iclasında bu təşkilatın baş direktoru Əbdüləziz Osman əl-Tüveycrinin cənab İlham Əliyevə müraciətlə söylədiklərinə nəzər salaq: "Azərbaycan Respublikası işğal olunmuş Dağlıq Qarabağ ərazilərinin birmənalı olaraq azad edilməsinə nail olacaq və işğal altındakı torpaqlar heç vaxt düşmənə nəsib olmayacaq. Biz bu bəyanatı tərəddüd etmədən veririk. Biz bunu hər zaman etmişik və edəcəyik. Biz bilirik ki, erməni işğalı nəticəsində böyük dağıntılar baş verib. Onlar işğal olunmuş torpaqlarda dini, tarixi, mədəni abidələri dağıdıblar. Buna görə də istərdik ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə hörmətlə yanaşılsın. Çünki mütləq xarakterə malik olan 4 qətnamədə erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal çıxarılması tələb edilir. Biz onun tərəfdarıyıq ki, bu torpaqlar tezliklə azad olunsun. Mən bütün regional dövlətlərə üzümü tutub deyirəm: Biz bu işğala son qoymalıyıq, pozulmuş hüquqları bərpa etməliyik. Mən Konfransdan xahiş edərdim bir Bəyannamə, qətnamə qəbul etsin və orada tələb olunsun ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və ətraf rayonlardan çıxarılsın. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı bəşəriyyətə qarşı cinayətdir. İnsanlar öz yerlərindən didərgin salınıb, qətlə yetirilib, onların hüquqları pozulub. Vaxt artıq çoxdan yetişib. Bu cür cinayətlərin qarşısı alınmalıdır. Azərbaycanın vacib regionu işğaldan azad edilməlidir və ediləcək."

Qayıdaq cənab İlham Əliyevin Milli Məclisdə dediklərinə: - "Bugünkü Ermənistan süni dövlətdir, tarixi Azərbaycan torpağında yaradılıb. Bir daha demək istəyirəm ki, bu həqiqətləri bütün dünya bilməlidir. Çünki münaqişənin həlli üçün tarixi əsaslar da mühüm rol oynayır. Uzun illər erməni təbliğatı sübut etməyə çalışırdı ki, Dağlıq Qarabağ onların tarixi torpağıdır. Lobbi qrupları vasitəsilə müəyyən dərəcədə ictimai rəyi çaşdıra bilmişdi. Ancaq son illər Azərbaycanın diplomatik səyləri, ictimai təşkilatların fəaliyyəti, dövlət siyasəti, əlbəttə ki, real mənzərəni dünya ictimaiyyətinin diqqətinə çatdırır və çatdıracaq. Azərbaycan xalqı və dövləti heç vaxt imkan verə bilməz ki, Azərbaycan ərazisində ikinci qondarma "erməni dövləti" yaradılsın."

Baxın, dəyərli oxucular, uğurlu siyasətin nəticəsi göstərir ki, ermənilər nəinki ikinci "erməni dövləti" yaratmaq, heç özlərinin olmayan birinci "erməni dövləti"ni də saxlamaq gücündə deyillər. Ermənistanın "iragir.am" portalı yazır ki, İlham Əliyev Ermənistanı təcrid və bütün imkanlardan məhrum edib. Eyni zamanda bildirilir ki, Yerevan Qərbdən aldığı dəstəklə Rusiya siyasətini yenidən gözdən keçirir. Bu isə Moskvanın mövqeyinə birbaşa təsir edir. Nikol Paşinyan iqtidarı bu xüsusda ABŞ-ın işinə yarayır. Amma bundan sonra Rusiyanın atacağı addımlar və xüsusən Dağlıq Qarabağ məsələsində tutacağı mövqe şübhəsiz ki, Yerevan üçün problemli olacaq. Bir sözlə, Yerevan üçün çox problemli günlər başlayır.

Dövlət başçımızın mükəmməl xarici siyasəti öz bəhrələrini verməkdə ikən, işğalçı ölkənin hansı məssəbə qulluq etdiyini heç özünün də bilmədiyi indiki rəhbəri Avropa ölkələrində dilənməkdədir. Bu yaxınlarda Nikol Paşinyan yalvar-yaxarla Avropadan cəmi 3 milyon avro qopara bilib. Görünən odur ki, Ermənistanın qonşu və region dövlətləri, o cümlədən aparıcı dövlətlər və güc mərkəzləri ilə münasibətləri tamamilə iflasa uğrayıb. Nikol Paşinyanın reallıqdan nəticə çıxarmayacağı təqdirdə ölkənin iflası və özünütəcridi getdikcə dərinləşəcək və işğalçı ölkənin çöküşü daha da sürətlənəcək.

Bizə isə Ali Baş Komandanımıza uğurlar diləməkdən savayı bir şey qalmır.

**Qələbə bizim olacaq. Buna heç kimin şübhəsi olmasın.**

*Rahib Qarayev,*
*polis polkovniki*

# BU, BİZİM MƏTBƏƏDİR
# TANIŞ OLAQ!

**Səhər tezdən maşınların səsi ilə başlayır onların işi. Əgər bu maşınlar saz vəziyyətdədirsə, deməli, başlamaq olar. Çapçıdan tutmuş cildçiyə kimi hərə öz işini yaxşı bilir. İllərin sınağından çıxmış peşəkarlar bu gün həm də bildiklərini gənclərə öyrədirlər. Bu, həyatdır, estafeti ötürmək lazımdır.**



Mətbəəmizlə, onun qocaman əməkdaşları ilə bağlı bir neçə dəfə yazmışıq. Mətbəə yarandığı gündən bu günə kimi əli işdən, gücdən soyumayanları niyə tanımayaq ki?



DİN-in bütün çap məhsulları burada-Maddi-Texniki Təminat Baş İdarəsinin Mətbəəsində işığa çıxır - "Mübariz keşikdə", "Polis", "Əsgər" qəzetləri, "Asayişin keşiyində" jurnalı, "Məlumat bülleteni" və s.

Texnika, hər gün yenilənən avadanlıqlar işimizi yüngülləşdirsə də, vaxtı qabaqlasaq da yenə insan əlinə və əməyinə ehtiyac var. Çap edilən hər məhsulda həm də onların sevgisini, ruhunu görürük. Çünki işlərini sevir, nə edirlərsə ürəkdən, məsuliyyətlə edirlər.

**Dünyaməddin Mərdanov** 10 ilə yaxındır ki, burda çalışır. Baş çapçıdır. Düzü, onu iş başında görəndə sevinirik. Çap ləngiməyəcək, çap maşınında baş verən hər hansı problem tezliklə həllini tapacaq.

Dünyamədinin həm də gözəl əl qabiliyyəti var. Taxta və dəmir üzərində elə gözəl naxışlar, ornamentlər işləyir ki...

Viktor Muratov da qocamanlardandır. 50 ilə yaxın iş stajı var. Deyir ki, işləməsə yorular. Həm də insan sevdiyi peşə ilə məşğul olanda elə bil dünyanı ona verirlər. İşi sözlə rəngin vəhdətidir. Burda maariflənir, oxuyur və öyrənir.

Bəli, "Mübariz keşikdə"nin də, jurnalımızın da, elə digər qəzetlərin də ilk oxucuları onlardır.

"İşinin peşəkarı olmaq insanı kimsədən asılı etmir və o, heç zaman ümidsizliyə qapılmır. Bilmədiyini öyrənmək isə ayıb deyil. Biz hamımız elə bərkə-boşa düşüb, çətinlik görüb öyrənə-öyrənə öyrədən olmuşuq. Gördüyün işin ürək açan, cana yaxın olması tək sənin uğurun deyil, kollektiv əməyin məhsuludur. Bunu burda çalışan gənclərə həmişə belə aşılayırıq",-deyir mühəndis-texnoloq **Zöhrab Məmmədov.**

Kollektivin ən gənc əməkdaşı **Məhəmməd İslamzadə** olsa da kompyuter üzrə tərtibatçı və dizayner kimi işində yeniliklər etməyi xoşlayır. Bütün günü axtarışdadır. Çap məhsullarının rəng seçimindən tutmuş, həriflərin şriftinə kimi nələrsə müzakirə olunanda Məhəmmədin yanaşması, fikirləri nəzərə alınır. Yəni söhbət işin faydasından, xeyrindən gedəndə "böyüklər danışsın, kiçiklər sussun" tendensiyası burda keçərli deyil. Hər kəsin söz haqqı var...

Şübhəsiz ki, burdakı mühit, ab-hava həm baş idarə, həm də mətbəə rəhbərliyinin diqqətində və nəzarətindədir.

*T.Hafiz*

# YOLA DAVAM...




Qəribə taleyi var qəzetçilərin. Zamanı bir gün qabaqlayırlar. Amma hərdən dayanıb nəfəslərini dərir, olanları, keçənləri saf-çürük edir və bu zaman dünyaya yeni bir jurnal, kitab gəlir.

Hamısı tarixdir, hər biri günümüzə şahidlik edən, bəzən də fotolarda zaman durduran həmişəyaşar tarix.

Qaya yazılarından, perqamentlərdən üzü bəri bəşərə, onun mədəniyyətinə, mənəviyyatına yoldaşlıq və xidmət edən, sonralar çap, indi elektron, gələcəkdə daha fərqli görünüşdə yaşayacaq yazı pozula, silinə bilməyəcək bir şansa sahibdir.

Mətbəə cəfakeşləri barədə həm də buna görə belə ürəkdən, səmimi yazırıq.

Yeri gəlmişkən, jurnalımızın daha bir sayı dünyaya gəldi.

Oxuyun, bizlər isə onun ömrünə ömür qatan hər bir insanımızla yenidən görüşənədək yola davam...

*X.Cavid*



**"Uşaqların sağlamlıqlarının möhkəmləndirilməsi, onların təlim-tərbiyəsinin daha da yüksəldilməsi üçün lazımi şərait yaradıldığı və rayonun aidiyyəti qurumları ilə birlikdə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində görülən işlər diqqətçəkəndir. Biz də qrup olaraq çalışırıq ki, görülən bu işlərə öz töhfəmizi verək. Bunun üçün tez-tez məktəblərə baş çəkir, keçirilən tədbirlərdə iştirak edir, şagirdlərlə xoş ünsiyyət qururuq. Amalımız birdir - gəncliyimizi zərərli vərdişlərdən qorumaq, onlara gələcək uğurlarında dəstək vermək.**



Bunu Astara RPŞ Yetkinlik yaşına çatmayanlarla profilaktik iş üzrə qrupun inspektoru, **polis baş leytenantı Amal Rzayev** dedi.

Şöbənin rəisi, polis polkovniki Azər Cahangirov bildirdi ki, A.Rzayev sıralarımızda beş ildir ki, xidmət edir. O, ən intizamlı əməkdaşlardandır. Gənc zabit üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir, həmkarlarına nümunə göstərir.

*****

**Astara RPŞ-nin sahə rəisi, polis leytenantı Nəcəf Aburşu** xidmətə yeni başlasa da qarşıya çıxan çətinliklərdən qorxmur, təcrübəli əməkdaşlardan öyrənir. Ezamiyyətdə olarkən fürsətdən istifadə edib onu da "fotoyaddaşa" köçürdük.

*****



İctimai asayişin qorunmasında və cinayətkarlıqla mübarizədə Post-Patrul Xidmətinin fəaliyyəti danılmazdır. Astarada ezamiyyətdə olarkən PPX əməkdaşlarının öz vəzifə borclarının öhdəsindən layiqincə gəldiklərinin şahidi oldum.

**Bölüyün əməkdaşları-polis serjantları Hasil Abdullayev və Ləhmət Məmmədov.**

*Üzeyir Muradov*

# İDMAN ONUN DÜNƏNİ, BU GÜNÜ VƏ GƏLƏCƏYİDİR

**Barəsində xəbər saytlarından çox oxumuşdum və hər dəfə də qələbə ilə Vətənə dönəndə mətbuat üçün verdiyi açıqlamalarda: "Bir qələbəmiz də bu gün tarixə qovuşdu. Gələcək qələbələrə hazır olmalıyıq",-deməsi titullu idmançımızın özünə tələbkarlığının göstəricisi idi. Akademiyada işlədiyim dövrdə onun şəklini idmançı dinləyicilər arasında görmüşdüm:- sinəsində medallar və başının üstündə üçrəngli bayrağımız.**



Elə bu günlərdə Çexiyada keçirilən Kombat Ciu-citsu üzrə dünya çempionatında milli komandamızı təmsil edənlərin DİN-in İdman Cəmiyyətinin yetirmələri olması da qürurverici idi. Bu yarışda Baş Dövlət Yol Polis İdarəsinin əməkdaşları-polis kapitanı Fərid Mayılov və Süleyman Əliyev "Police self defense" növündə birinci yeri tutaraq daha güclü olduqlarını sübut ediblər. İdman tariximizə düşən bu xəbəri oxuyandan sonra Fərid Mayılovla görüşmək qərarına gəldim.

Onu tapmaq çətin olmadı. Tanıyanlar bilir, tanımayanlara demək istəyirəm ki, uzaqdan baxanlar onun idmançı olduğunun fərqinə varmazlar. Sakit görünüşlü, aram-aram danışığı olan həmkarımızın sinəsinin altında döyüşlərdə heç nədən, hətta mənəm-mənəm deyən rəqiblərindən belə qorxmayan bir ürəyin döyündüyünü görmək üçün günün müəyyən saatlarında onun məşqlərini izləmək yetərlidir.

1983-cü ildə Şamaxıda doğulub. Özünün dediyi kimi arıq və çəlimsiz uşağın idmana olan həvəsinin qarşısını almağa valideynləri çox çalışıblar. Onu nə yolla olursa-olsun idmandan uzaqlaşdırmaq istəyiblər. Zədə almağından, əlini, ayağını sındırmasından qorxublar. Ancaq Fəridin ən böyük arzusu əmiləri, dayıları kimi barmaqla göstəriləcək idmançı olmaq idi. Onlardan öyrəndiklərini hər axşam evin altını-üstünə çevirib təkrarladıqca anasının dilindən nisgilqarışıq "Bu saat bir yerin sınacaq" sözü düşməyib. O isə daha inadla, daha əzmlə məşqlərinə davam edib.

Böyük idmanın qapıları Bakıda üzünə açılıb. Sıxıntıları da az olmayıb. Bəzən bir qarnı ac, bir qarnı tox məşqə getmək üçün iki-üç avtobus dəyişib.

Bakıdakı 18 nömrəli məktəbi bitirib və təhsilini Bakı Texniki Kollecində davam etdirib. 2003-cü ildə hərbi xidmətdən təxris olunub, elə həmin il də daxili işlər orqanlarına qəbul olunub. İlk xidmət yeri NBPİ Su Nəqliyyatında Polis İdarəsi olub. Bir çox xidmətlərdə çalışıb. 2006-cı ildə Polis Akademiyasına daxil olub və 2011-ci ildən polis zabiti kimi Baş Dövlət Yol Polisi İdarəsində xidmətdədir. İlk beynəlxalq uğurunu Brazaliyanın San-Paulo şəhərində qazanaraq 70 kiloqram çəki dərəcəsində konfu-sandadan dünya çempionu olub. Növbəti il yenə də konfu-sandadan Portuqaliyada keçirilən dünya çempionatında qızıl medalı əldən verməyib. 2009, 2010, 2011 və 2014-cü illərdə də dünya çempionu titulunu qoruyub-saxlayıb. 2013-cü ildə isə Honkonqda dünya kuboku uğrunda keçirdiyi döyüşlərdə iştirakçı dövlətlərin idmançıları ilə yanaşı, tamaşaçıları da heyrətə gətirərək məğlubolunmazlığını sübut edib. 2015-ci ildə "dünya kəməri" uğrundakı yarışda Azərbaycanın himni səslənəndə həm özü, həm də azarkeşlik edən həmvətənlərimiz göz yaşlarını saxlaya bilməyiblər.

**Polis kapitanı Fərid Maylovun** idman sahəsindəki nailiyyətləri ölkə başçımızın da diqqətindən kənarda qalmayıb. 2010-cu ildə ona da mənzil hədiyyə edilib. Fərid həm də 2011-ci ildə Avropa çempionluğunu qazananda "Prezidentin Fəxri Fərmanı" ilə mükafatlandırılıb.

Fərid Mayılov yarışlarda iştirak etməsi üçün yaratdığı şəraitə görə DİN-in və baş idarənin rəhbərliyinə, polis pokovniki Zemfira Meftaxetdinovaya, əməkdar məşqçi Rəsul Məmmədova təşəkkürünü bildirir.

O, öz uğurları ilə yanaşı yetirmələrinin də uğurlarını təqdir edir, buna sevinir. "Yetirmələrim hər il Avropa və dünya çempionatlarında, irimiqyaslı turnirlərdə uğurlu nəticələr əldə edirlər.

Yeddiqat dünya çempionu, polis kapitanı Fərid Mayılovun ailəsində gələcək uğurlarının davamçısı olacaq üç övlad böyüyür…

*H.Təmirov,*
*polis mayoru*

# ƏLİNİN ARZULARI...

**Boks əlcəklərində az qala bütün vücudu gizlənmişdi. Özündən yaşca çox böyük olan idmançının əlcəklərinə doğması kimi sarılmış və gələcəkdə qazanacağı uğurları uşaq sadəlövhlüyü ilə valideynlərinə göstərmək üçün evdəki balışları yumruqlamışdı. “Mən idmana gedirəm”,- deyəndə isə ona “Əvvəlcə dərslərini yaxşı oxu”,- demişdilər.**

Bəlkə də ürəyində küsüb incimişdi də. İdmana getmək həvəsi nadincliyə çevriləndə nənəsi işə qarışmışdı. “Ay bala, bu uşaq idman deyib, özünü həlak etdi, aparıb bir yerə yazdırın. Həm enerjisi çıxsın, həm də sağlamlıqdır. Bəlkə doğrudan da çempion oldu.”

Üstündən çox vaxt keçməyib. Amma o, indi həm dərslərini yaxşı oxuyur, həm də idmanda kövrək və inamlı qələbələrini qazanır. Arzusu bu gün adlarını sevə-sevə çəkdiyimiz idmançılar sırasında olmaq, bayrağımızı ucaltmaqdır.

Yeddinci sinif şagirdidir Əli Behbudov. Səbail rayonundakı 132-134 nömrəli məktəbdə təhsil alır. Kikboksla məşğul olur. 2017-ci ildə Bakıda keçirilən muay-tay idman növü üzrə respublika turnirində ikinci yerə çıxıb. Bu il ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr edilmiş kikboksinq üzrə ölkə turnirinin qalibi olub. Müstəqillik gününə həsr olunmuş yarışda isə ikinci yeri tutub. Əli dəfələrlə müxtəlif



idman klublarının təşkil etdikləri yarışlarda öz çəki dərəcəsində 1-ci və 2-ci yerlərə layiq görülüb.

Bizim üçün bir də sevindirici odur ki, anası Ruhiyyə Əliyeva polis leytenantı, qəzetimizin müxbiridir. Ruhiyyə xanım deyir ki, Əlinin idmana həvəsini ondan öncə qonşular kəşf ediblər. Uşağın çəldliyi, tez qərar vermək qabiliyyəti, çevik reaksiyası gözdən qaçmayıb.

***İllər də, uğurlar da hələ qarşıdadır, çempion Əli!***

***H.Təmirov, polis mayoru***

## DAXİLİ İŞLƏR NAZİRLİYİ
### SOSİAL ŞƏBƏKƏLƏRDƏ

Facebook
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.facebook.com/mia.gov.az/

İnstagram
Adı- azerbaycan.din
Keçid linki- https://www.instagram.com/azerbaycan.din/

Twitter
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://twitter.com/MIAAzerbaijan

Youtube
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.youtube.com/channel/UCnOFIn-vwFvkLMCMGyg2j-w/featured

# POLİSLƏR VAXTINDA YETİŞDİ

**Ötən nömrəmizdə Nizami RPİ PPXB əməkdaşlarının qısa müddət kəsiyində cinayətkarlıqla mübarizədə keçirdiyi uğurlu əməliyyatlardan bəziləri haqqında məlumat verəcəyimizə dair anons vermişdik. Sözümüzü tuturuq...**

***-Axşamın xeyir.***

***-Hər vaxtın xeyir.***

***-Qardaş, rayona, anama zəng vurmalıyam, telefonda kontur da bitib. Bəlkə verəsən, səninkindən onu yığım.***

Eşqin heç fikirləşmədən mobil telefonunu ilk dəfə gördüyü həmin şəxsə uzatdı. Danışığı elə də uzun çəkmədi. Amma hərəkətlərindən belə görünürdü ki, telefonu sahibinə qaytarmaq fikrindən uzaqdır. Bu dəfə Eşqin ona səsləndi:

***-Dostum, danışıb qurtardınsa telefonu qaytar.***

O isə Eşqinin bu xeyirxahlığına özünəməxsus cavab verdi. Üzərində gəzdirdiyi lezvanı çıxarıb ona tərəf tuşladı:

***-Telefonu yadından çıxart. Bax, deyirəm, səsini çıxarsan səni doğram-doğram edərəm.***

Eşqin ona yaxınlaşdı. Naməlum şəxs qəfildən təpiklə güclü zərbə endirdi. Azğınlaşmış adam bu azmış kimi yerə yıxılan yeniyetməni təpikləməyə başladı.



Eşqin özünə gələndən sonra üst-başını təmizləyib evə yollandı. Bu arada ona qarşı quldurluq edən şəxs də qaçmışdı.

Valideynlərinə hər şeyi olduğu kimi danışdı. Qərarlaşdılar ki, səhəri polisə gedib hadisə barədə məlumat versinlər. Ertəsi gün sübh tezdən evdən çıxıb dayanacağa tərəf üz tutdular. Birdən Eşqin axşam ona qarşı quldurluq edən həmin şəxsin tində dayandığını gördü. Bəlkə də növbəti qurbanını gözləyirdi. Eşqin qışqıraraq ona tərəf qaçmağa başladı. Sonuncu da yaxalanmamaq üçün “dabanına tüpürdü”.

**Nizami RPİ PPXB-nin polis nəfərləri-Qoşqar Xəlilov və Qəhrəman Həmidov** həmin vaxt ərazidə xidmət aparırdılar. Qaçan şəxsi təqib edənlərdən biri qışqıraraq polisləri köməyə çağırır.

Polis baş serjantı Qoşqar Xəlilov: “Biz cəld səs gələn tərəfə qaçdıq. İrəlidə qaçanı saxlamaq istəyəndə cibindən lezva çıxarıb bizə tuşladı. Bizimlə baş edəməyəcəyini anlayanda onu boğazına çəkdi. Özümüzü itirməyərək ilk tibbi yardım göstərib xidməti maşına mindirdik. Vaxt itirməmək üçün yoldaca təcili tibbi yardıma zəng vurduq. Xəsarəti yüngül olduğundan həyati təhlükəsi yox idi... Onu 25-ci PB-nə təhvil verdik.”

Sonradan aparılan əməliyyat-istintaq tədbirləri nəticəsində hadisəni törədən şəxsin əvvəllər məhkum olunmuş Cavanşir Bayramov olması müəyyənləşdirildi.

Digər bir hadisə barədə **polis baş serjantı Atakişi Quliyev** danışdı: “Növbədən çıxıb evə gedirdim. Birdən iki nəfərin mübahisə etdiyini gördüm. Yaxınlaşmaq istəyəndə biri qışqırmağa başladı: “Kömək edin, çantamı qaçırdılar”. Tez qaçanın arxasıyca düşdüm. Əvvəlcə qaranlıqda kolların arxasında gizləndi. Məni görən kimi gizləndiyi yerdən çıxıb müqavimət göstərməyə başladı. Fəndlə onu zərərsizləşdirdim, xidmətdə olan patrul maşının çağırıb PB-nə təhvil verdik. Araşdırmalar zamanı soyğunçuluq edənin əvvəllər məhkum olunmuş Tərlan Umayev olduğu müəyyənləşdirildi.”

**Polis serjantı Elnur Əhmədov:** “Günortaydı. Bir nəfər mənə yaxınlaşıb az əvvəl onun mobil telefonunu alan şəxsin yaxınlıqdakı mağazaya girdiyini bildirdi. Qoşqarla həmin mağazaya yaxınlaşdıq. Demə, dükanın arxa çıxışı da varmış. Məni görən kimi həmin qapıdan qaçdı. Amma 200-300 metr təqibdən sonra ona çatdıq. Sonradan onun bu cür 7 əməl törətməsini öyrəndik.”

***Ç.Şıxverdiyev, polis polkovnik-leytenantı***

# MAARİFLƏNDİRİCİ SEMİNAR KEÇİRİLİB

**Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən yetkinlik yaşına çatmayanların baxımsızlığı, hüquq pozuntularının profilaktikası sahəsində ictimaiyyət arasında, təhsil ocaqlarında maarifləndirmə tədbirləri davam etdirilir.**

Növbəti belə tədbir Şamaxı rayonundakı 3 nömrəli orta məktəbdə keçirilib.

“Yetkinlik yaşına çatmayanların radikal dini cərəyanların təsiri altına düşmə hallarının qarşısının alınmasında, eləcə də onların baxımsızlığının və hüquq pozuntularının profilaktikasında polisin rolu” mövzusunda keçirilən seminarda Rayon Polis Şöbəsinin, İcra Hakimiyyətinin, idarə, müəssisə, təşkilat nümayəndələri, yuxarı sinif şagirdləri və pedaqoji heyət iştirak ediblər.

“Narkotiklər haqqında nə bilirik?”, “Erkən nigahın fəsadları və qarşısının alınmasında gənclərin fəallığının artırılması”, “Dini radikalizm” mövzularında çıxışlarda narkomaniyanın yayılmasına, dini radikalizm və erkən nikah hallarına qarşı hamılıqla mübarizə aparılmasının vacibliyi önə çəkilib, bu işdə əmək kollektivlərinin, müəllimlərin, gənclərin, habelə valideynlərin üzərinə çox böyük məsuliyyətin düşdüyü vurğulanıb.

Müzakirələrdə məktəbliləri maraqlandıran suallar cavablandırılıb, mövzuya dair videoçarx nümayiş etdirilib.

***N.Cavadov, polis kapitanı***

Türkiyənin daxili işlər naziri Süleyman Soylu son bir ildə terrorçu PKK qruplaşmasının 1451 silahlısının, solyönlü terror qruplaşmalarının 40 üzvünün zərərsizləşdirildiyini, İŞİD-in 336 üzvünün isə tutulduğunu bildirib.

Nazirin sözlərinə görə, ötən bir il ərzində PKK-ya qarşı 91297, FETO-yə 38725, İŞİD-ə 2483, solyönlü radikal sol qruplaşmalara qarşı 655 əməliyyat keçirilib. Narkotik maddələrin qanunsuz satışı ilə məşğul olanlara qarşı keçirilən 143394 əməliyyat nəticəsində 21947 nəfər tutulub.

*****

***İtaliyanın "Kamorra" cinayətkar dəstəsi "Poço" ləqəbli polis itinin başına görə 5 min avro mükafat vəd edib. "Poço" artıq bir neçə ildir Neapol polisində xidmət edir və narkotiklərin axtarışı üzrə ixtisaslaşıb. İt işlədiyi müddətdə***




***2 tondan çox qadağan olunmuş maddə aşkar edib. Mafiozlar buna görə bir neçə milyon avro itiriblər.***

***"Poço"nun 9 yaşı var və onun təqaüdə çıxmasına cəmi bir il qalıb. Əvvəllər cinayətkarlar itdən zəhərli maddənin köməyi ilə xilas olmağa çalışıblar, lakin onların cəhdləri puça çıxıb.***

***Polisdən bildirilib ki, köpək mühafizə altındadır və onun həyatı üçün heç bir təhlükə yoxdur.***

*****

Türkiyədə polis oğruları tutmaq üçün küçə təmizləyən bələdiyyə işçilərinin roluna girib. Əməliyyat Ankarada baş tutub.

Bankomatları qarət edən quldurlar uzun müddət axtarışda olublar. Onları tutmaq mümkün olmayıb. Hər dəfə polislərdən qaçmağı bacaran cinayətkarlar bu dəfə “tələyə” düşüblər. Ətrafda polis olmadığına əmin olduqları üçün rahatca hərəkət etmək istəyən şübhəlilər, polisin planından xəbərsiz olublar.

Polislər isə bələdiyyənin təmizlik işçilərinin paltarlarını geyiniblər. Cinayətkarlar yaxınlaşdıqda, təmizlik işçisinin formasında olan polislər qəfil onları yaxalayıblar.

*****

***Belçikanın hüquq-mühafizə orqanlarının 22 min əməkdaşını birləşdirən “Polislərin birliyi uğrunda hərəkat” (Police Unifying Movement) üzvləri noyabrın 1-dən 15-dək yol hərəkəti qaydalarını pozan sürücülərdən cərimə almayacaq və bunun əvəzinə onlarla maarifləndirici söhbətlər aparacaq.***

***Bu barədə hərəkatın “Facebook” səhifəsində bildirilir. “No Money” (“Pulsuz”) etiraz aksiyası hökumətin diqqətini polislərin tələblərinə cəlb etmək məqsədi daşıyır. Onlar polis orqanlarının federal və yerli statuslarının yaranmasına gətirib çıxaran 2001-ci il islahatları ilə razı deyillər. Aksiya iştirakçıları bu islahatlara ictimai etiraz nümayiş etdirmək üçün noyabrın 15-də Brüsselin mərkəzi Qran-Plas meydanında toplanacaqlar.***

*****

Çində işçi heyəti olmayan polis bölməsi fəaliyyətə başlayıb. Bu, Çində gecə-gündüz işləyən, sərhəddin keçilməsi, yaşayış yeri üzrə qeydiyyatın əldə edilməsi və nəqliyyat vasitələrinin idarəetməsi üzrə xidmət göstərən ilk tamamilə avtomatlaşdırılmış polis bölməsidir.

Polis bölməsində sifətin tanınması, süni intellekt texnologiyaları tətbiq edilib. Xidmətlərdən istifadə etmək üçün displeyə toxunuş etmək lazımdır, bundan sonra şəxsiyyət vəsiqəsi, yaşayış icazəsi, giriş-çıxış vizasında qeyd rəsmiləşdirmək, nəqliyyat vasitələrinin cərimə və müsadirəsini, ictimai asayişə nəzarəti həyata keçirmək olar.

***C.Natiq***

# Oktyabrın 31-dən noyabrın 6-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 807 cinayət qeydə alınmış, onların 139-u «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 95 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 166 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 4 nəfər, borclu şəxs qismində axtarışda olan 72 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 21 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 9 nəfər ölmüş, 32 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 51 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 200 nəfər saxlanılmışdır.

Daxili İşlər Nazirliyinin rəhbərliyi Samux RPŞ-nin rəisi Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oqtay Kərimov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİO Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Faiq Şabanov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Samux RPŞ-nin şəxsi heyəti şöbə rəisi Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daşkəsən RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Akif Nəbiyevə anası
**HƏCƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 15:00